# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Qəbələ rayon sakinlərinə təbriki

***Hörmətli qəbələlilər!***

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə ən xoş arzularımı bildirməkdən məmnunluq duyuram.

2015-ci il artıq tarixə qovuşur. Yola salmaqda olduğumuz il Qəbələ rayonu üçün uğurlu olmuş, qarşımızda duran bütün vəzifələr yüksək səviyyədə icra olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində həyata keçirilən genişmiqyaslı yeni infrastruktur layihələri, aparılan nəhəng abadlıq, tikinti-quraşdırma və bərpa işləri, hərtərəfli iqtisadi tərəqqi hamımızda fərəh hissi doğurur. Müstəqil ölkəmizin inkişafı ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf xəttinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi təzahürüdür.

Ötən illərdə olduğu kimi, 2015-ci il də ölkəmiz üçün, o cümlədən Qəbələ rayonu üçün yaddaqalan hadisələrlə zəngin olmuş, yeni uğurlara imza atılmışdır.

Aparılan geniş abadlıq-quruculuq işləri, turizm infrastrukturunun inkişafı və digər sahələrdə əldə edilən nailiyyətlər rayonun görkəmini başdan-başa dəyişmiş, Qəbələni nəinki ölkəmizdə, eləcə də bütün dünyada nadir turizm bölgəsi kimi şöhrətlənmişdir.

Beynəlxalq mədəniyyət mərkəzlərindən birinə çevrilmiş Qəbələnin son illər ən mötəbər tədbirlərə ev sahibliyi etməsi rayonumuzun hər bir sakininə mənəvi ucalıq bəxş edir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Qəbələyə göstərdiyi böyük diqqət, aparılan sistemli iş, inkişafın yeni hədəflərinin müəyyənləşdirilməsi onu deməyə əsas verir ki, 2016-cı ildə nailiyyətlərimiz daha da artacaq, dayanıqlı inkişaf üçün əlavə imkanlar yaranacaqdır.

***Hörmətli qəbələlilər!***

Sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə hərarətlə təbrik edir, təzə ildə hər birinizə yeni-yeni nailiyyətlər, əmin-amanlıq, cansağlığı , hər bir ailəyə xoş əhval-ruhiyyə, firavanlıq arzulayıram.

*Qəbələ şəhəri, 31 dekabr 2015-ci il.*

# Kənd təsərrüfatı naziri Qəbələdə bölgə vətəndaşlarını qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün müxtəlif tədbirlər görürlər

Kənd təsərrüfatı naziri Heydər Əsədov dekabrın 25-də Qəbələ rayonunda Qəbələ, İsmayıllı, Şamaxı, Qobustan və Abşeron rayonlarından olan vətəndaşları qəbul edib. Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin də iştirakı ilə keçirilən qəbulda 25 nəfərin müraciətinə baxılıb.

Qəbula gələn vətəndaşlar əsasən fermerlərə güzəştli kreditlərin verilməsi, kənd təsərrüfatı texnikalarının alınmasına kömək göstərilməsi və texniki təminatın artırılması, pay torpaqları ilə bağlı yaranmış problemlərin həlli, baytarlıq nəzarəti xidmətinin gücləndirilməsi, ixtisasa uyğun işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər ediblər. Nazir Heydər Əsədov vətəndaşların müraciətlərini, şikayət və təkliflərini dinləyərək, hərtərəfli öyrənilməsi və qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün nazirliyin müvafiq strukturlarının rəhbərlərinə tapşırıqlar verib.



Heydər Əsədov sakinlərlə görüş zamanı dövlətimizin başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı son dövrlərdə imzaladığı sərəncamları ətraflı şərh edib, qəbul olunmuş sərəncam və qərarların bütövlükdə kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə kənd təsərrüfatının inkişafına təkan verəcəyini vurğulayıb.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan digər məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan digər müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qəbul başa çatdıqdan sonra nazir Heydər Əsədov Qəbələ şəhərində inşa edilən Kənd Təsərrüfatı İdarəsinin inzibati binasında tikinti işlərinin gedişi ilə maraqlanıb.

**Oqtay Məmmədov.**
**Foto İ. Vəlizadənindir.**

### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2016-cı İLİN YANVAR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Mamaylı kəndi | 05.01.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Dizaxlı kəndi | 12.01.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Tikanlı kəndi | 19.01.2016 | Kənd məktəbi, saat $15^{00}$ |
| Bum qəsəbəsi | 26.01.2016 | Qəsəbə məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Maarifləndirici tədbir keçirilmişdir

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Qəbələ Regional QHT- lərin Resurs və Təlim Mərkəzində "Gənc Hüquqşünas Qadınlar Hüquqi İslahatlar Uğrunda" İctimai Birliyi tərəfindən "Cəza çəkməkdən azad edilən gənclərin sosial adaptasiyası və reabilitasiyası" layihəsi çərçivəsində tədbir keçirilmişdir. Tədbir iştirakçılarına cəzaçəkmə müəssisələrindən azad edilmiş gənclərin sosial adaptasiyası, reabilitasiyası, məşğulluğunun təmin edilməsi, onlara sosial, hüquqi, psixoloji və s. yardımların göstərilməsi istiqamətində geniş maarifləndirici məlumatlar verilmişdir. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# 20 yanvar faciəsinin 26-cı ildönümünə hazırlıq genişlənir

Qanlı 20 Yanvarın 26-cı ildönümü yaxınlaşmaqdadır. Azərbaycan xalqı hər il bu ümumxalq hüzn gününü tariximizin ən faciəli günü, eyni zamanda ölkəmizi müstəqilliyə aparan şərəfli günü və qəhrəmanlıq səhifəsi kimi qeyd edir.

26 il bundan əvvəl yanvar ayının 19-dan 20-nə keçən gecə Ermənistanın Azərbaycanın əzəli torpaqlarına qarşı təcavüzkar hərəkətlərindən hiddətlənərək etiraz əlaməti kimi Bakı şəhərinin küçələrinə çıxan əliyalın dinc əhaliyə qarşı ermənilərə havadarlığını nümayiş etdirən sovet qoşun birləşmələri hərbi əməliyyat həyata keçirdilər. Dinc əhalini qanına qəltan etdilər. Həmin əməliyyatlar nəticəsində 140-a qədər qoca, cavan, uşaq, qız, gəlin şəhid oldu, onlar torpağı, azadlığı, şərəf və ləyaqəti həyatlarından üstün tutdular.

Azərbaycan xalqı indi hər il şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edir. Bu il də respublikamızda 20 Yanvar faciəsinin 26-cı ildönümünün keçirilməsi üçün Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri Ramiz Mehdiyevin15 dekabr 2014-cü il tarixli 96 nömrəli sərəncamı ilə geniş tədbirlər planı təsdiq edilmişdir. Sərəncamın icrası ilə bağlı rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 25 dekabr 2015-ci il tarixli sərəncamına əsasən tədbirlər planı təsdiq edilmiş, eyni zamanda müvafiq komissiya yaradılmışdır. Tədbirlər planında idarə və müəssisələrdə 20 Yanvar faciəsi ilə əlaqədar yığıncaqlar, dəyirmi masalar keçiriləcək, ədəbi-bədii kompozisiyalar, təhsil müəssisələrində xüsusi dərs saatları təşkil olunacaqdır. Yanvarın 20-də rayon ərazisində Azərbaycanın dövlət bayraqları təlimata uyğun endiriləcək, saat 12-00-da bir dəqiqəlik sükut keçiriləcək, avtomobillərdən səs siqnalları veriləcək və bir sıra digər tədbirlər həyata keçiriləcəkdir.